## 21 sentyabr Beynəlxalq Sülh Günüdür!

# Sülhə gəlin, ey insanlar, yoxsa dünya məhv olar





**1981-ci ildə BMT tərəfindən təsis edilən Beynəlxalq Sülh Günü ilk mərhələdə sentyabrın üçüncü çərşənbə axşamı qeyd edilirdi. 2001-ci ildə Birləşmiş Krallıq tərəfindən təklif olunan qətnaməyə əsasən, bu əlamətdar gün üçün dəqiq tarix 21 sentyabr seçildi və o vaxtdan hər il mühüm hadisə kimi dünya miqyasında qeyd olunur.**

İnsanları sülhə, sabitliyə, təhlükəsizliyə çağıran bu gün BMT-nin Nyu-Yorkdakı Baş Qərargahında quraşdırılan "Sülh zəngi"nin çalınması ilə başlayır. Yaponiya parlamentinin bütün dünya xalqlarına hədiyyəsi olan bu zəngin üzərində yazılmış "Yaşasın Mütləq Dünya Sülhü" sözləri sanki bəşəriyyətin qorunması, silahların susdurulması, sakini olduğumuz dünyamızda əmin -amanlığın təminatı üçün həyəcan siqnalıdır. Məhz bu gündə BMT-nin baş katibi Pan Gi Mun həmin zəngi çalaraq qan-qada gətirən döyüşləri 24 saat ərzində dayandırmağı, münaqişə və müharibələr zamanı həlak olanların xatirəsinin bir dəqiqəlik sükutla yad olunmasını tövsiyə edir. Sülhün bərqərar olmasına yönəlmiş bu çağırış insanlığın missiyası, bəşəri dəyərlərin ən önəmlisidir.

Dünyada yoxsulluq əleyhinə ən böyük kampaniya olan "Minilliyin İnkişaf Məqsədləri" sammiti ilə eyni günə təsadüf edən Beynəlxalq Sülh Gününün builki devizi belədir: " Sülh= Gələcək: Hesablama sadədir." 20-22 sentyabrda Nyu-Yorkda keçiriləcək və gündəliyində planetimizin qorunması üçün sülh, sabitlik, təhlükəsizlik kimi əhəmiyyətli məsələlərin dayandığı bu sammitdə iştirak edəcək dövlət başçıları bir araya gələrək yoxsul ölkələrdə xəstəlik, ana və uşaq ölümlərinin qarşısının alınması, yoxsulluq və aclıqla mübarizə yolları ilə bağlı müzakirələr keçirəcək, əhalisi aclıqdan, maddi vəziyyətdən əziyyət çəkən xalqlara yardımların ayrılması ilə bağlı fikir mübadiləsi aparacaqlar.

Dünyanın müxtəlif guşələrində münaqişə və müharibələrin artdığı, separatçılığın, təcavüzkarlığın geniş miqyas aldığı, yeni münaqişə ocaqlarının yarandığı, dövlətlərarası münasibətlərin gərginləşdiyi, silah, narkotika, orqan ticarəti şəbəkəsinin bütün dövlətləri əhatə etdiyi müasir dövrümüzdə sülhün bərqərar olmasından danışmaq tezdir. "Beynəlxalq Sülh Günü bütün insanlar üçün dünyanın hər yerində əmin-amanlığı daha da möhkəmləndirmək naminə səylərimizi nəzərdən keçirmək imkanıdır" söyləyən Pan Gi Mun həmin tarixi planetimizdə atəşkəs günü elan edir: "Bu gün mən qətiyyətlə bütün ölkələri və döyüş aparan tərəfləri bu atəşkəsə hörmət etməyə çağırıram. Silahların susduğu bu müddətdən münaqişələrin hamımıza necə baha başa gəldiyini düşünüb anlamaq üçün istifadə etməliyik. Biz var qüvvəmizlə bir günlük fasilənin daimi olması üçün vasitələr axtaracağımız barədə qəti qərarımızı bildirməliyik."

İllərdən bəri müharibə şəraitində yaşayan Azərbaycan üçün sülhün təminatı daha əhəmiyyətlidir. 25 ildir ki, Ermənistanın torpaqlarımıza təcavüzü nəticəsində müharibənin əziyyətlərini yaşayan, qaçqın, köçkün problemi ilə üzləşən Azərbaycan regionda sülhün, əmin-amanlığın təminatı üçün bütün imkanlardan istifadə edir, beynəlxalq təşkilatlarda ərazi bütövlüyümüzün bərpası üçün aparılan müzakirələrdə, danışıqlarda sülhsevər siyasətini diqqətə çatdırır. Ermənistanın dinc əhalimizə qarşı törətdiyi Xocalı soyqırımı zamanı qətlə yetirilən soydaşlarımızın faciəsi bütün dünya xalqlarına çatdırılır. Daim sülh tərəfdarı olan Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsi zamanı erməni silahlıları tərəfindən öldürülən, əlil olan soydaşlarımızın hüquqlarının qorunması üçün beynəlxalq ictimaiyyəti ədalətli olmağa çağırır. Amma dünyanın çərxini istəydiyi səmtə döndərən, müharibə və münaqişələri şəxsi məqsədləri naminə qızışdıran qüvvələr üçün sülh, xalqların birgə yaşayışı o qədər önəmli deyil.

Uzağa getməyək. Atəşkəs rejimində belə hər gün təmas xəttinə yaxın kəndlərimizi, yaşayış məntəqələrimizi hədəf seçən, iri və xırda çaplı silahlardan atəş açaraq dinc sakinləri öldürən, yaralayan, şikəst edən erməni silahlıları üçün Sülh Günü, BMT-nin baş katibinin istənilən çağırışı önəmli deyil. Əgər beynəlxalq hüquqlara hörmət edilsəydi onda AŞPA, ATƏT kim təşkilatları demirik, təkcə BMT-nin Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qəbul etdiyi 4 qətnamə çoxdan həllini tapmalı idi. Belə yüksək səviyyəli, dünya xalqlarının evi adlandırılan BMT kimi təşkilatın Baş Məclisinin və Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnaməyə əməl etməyən, ilin 365 günündə atəşkəsi dayanmadan pozan təcavüzkar Ermənistan üçün bir günlük sülh çağırışı heç nədir.

Hazırda Şərq ölkələrində baş verən münaqişələr, müharibələr nəticəsində yaranan miqrant axını üçün bir günlük də olsa sülh nə qədər önəmlidirsə, bu dəhşəti insanlara yaşadanlar üçün bir o qədər əhəmiyyətsizdir. İraq, Suriya, Livan, Liviya, Misir, Əfqanıstan, Pakistan, Kəşmir, Türkiyə... Terrorun baş alıb getdiyi, əhalisi əsasən müsəlmanlardan ibarət olan bu ölkələrdə sülhün təminatı, dağıntıların bərpa olunması, insanlara vurulan maddi, mənəvi yaraların sağalması üçün onillər lazım gələcək.

Hələ də atəş səslərinin eşidildiyi, miqrantların, o cümlədən uşaqların, qadınların, günahsız insanların aclıqdan, səfalətdən əziyyət çəkdiyi müasir dövrümüzdə Beynəlxalq Sülh Günündən formal, söz demək, vəd vermək xatirinə yox, sülhün təminatı üçün görülən əməli işlərin müsbət nəticələrindən danışmaq vaxtıdır. Çünki silah səsləri ilə açılan hər səhərimiz, təlaş və qorxu içərisində başa vurulan hər gün neçə-neçə insanın ölümü, səfaləti, xəstəliyi, təhqir və təhdidlərlə üzləşməsi deməkdir. İnsan hüquqlarının pozulması ilə şərtlənən, Avropa və Qərbin "demokratiya, rahat həyat tərzi ilə bağlı, təşəbbüsləri"nin yaratdığı problemlər həllini tapmayınca bütün dünya xalqlarının arzusunda olduğu sülhdən söhbət gedə bilməz.

Hərbi silah və sursatdan istifadə nəticəsində ekoloji tarazlığın pozulması, dağılan şəhərlərin infrastrukturunun yararsız hala düşməsi, flora və faunanın nadir nümunələrinin kökünün kəsilməsi, yaşayış üçün həyat qaynağı, oksigen mənbəyi yaşıllıqların məhv edilməsi... bütün bunlar birbaşa və dolayısı ilə sülhün təminatı ilə bağlıdır. Təbiətə biganə münasibətimiz isə "Gələcəyimizi gənc nəslə etibar edirik" sözlərinin reallığına şübhə yaradır. Bu gün bəşəriyyətin hər bir övladı düşünməlidir ki, sabahımızı hansı vəziyyətdə onlara ərmağan edəcəyik. Hər səhər güllə səsindən qışqıraraq oyanan körpələri, valideynləri gözləri qarşısında qətlə yetirilən uşaqları, başları kəsilən, evlərinə od vurulan insanları xatırlayaq. Bu sadalananlar isə ümidimiz adlandırdığımız, dünyanın gərdişini hələ tam qavramayan nəsildə psixoloji vəziyyət, şok yaradır. Bəzən isə onlarda yaranan intiqam duyğuları İŞİD, PKK kimi qanlı dəstələrə maraq oyadır. Gənclərin sosial şəbəkələrdə izlədikləri ən çox terrorçu qrupların vəhşiliklərinin qurbanı olan qətl görüntüləridir.

Nə qədər ki, gec deyil, hələ ki anamız adlandırdığımız dünyamız tam dağılmayıb hər kəs, xüsusilə münaqişələrdən hamıdan çox əziyyət çəkib övlad, ata, ana ağrısından sızıldayan analar bir səslə deməlidirlər.

*Silahları yandırın, ərşə qalxsın tüstüsü,*
*Hər obada, hər eldə qanadlansın sülh sözü.*
*Mən anayam, bu səsimdə yerin, göyün dərdi var,*
*Sülhə gəlin, ey insanlar, yoxsa dünya məhv olar.*

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***